DOI: https://doi.org/10.36719/2706-6185/34/95-98

**Ceyhunə Aslanova**
Bakı Dövlət Universiteti
magistrant
jeyhunaslanova@mail.ru

# ANARIN NƏSRİNDƏ QARABAĞ NİSGİLİ

**Xülasə**

Anarın rəngarəng mövzulardan ibarət olan yaradıcılığı cəmiyyəti narahat edən, xalqın ümumi mənafeyinə xidmət edən bir çox məsələyə toxunan mövzulardan ibarətdir. Bu mövzular yazıçının xalqla əlaqəsinin daha da möhkəmlənməsində, oxucuların qəlbinə tapdığı yolda uğurla irəliləməsində əsas rol oynayır. Bu səbəbdəndir ki, Anarın əsərləri illər keçməsinə baxmayaraq öz aktuallığını saxlayır. Lirik əsərlərində duyğuların bədii notlarla ifadəsində qazandığı oxucu məhəbbətindən daha çox Anar epik əsərlərində insanın daxili duyğularını qeyri-adi yox, tamamilə təbii və səmimi şəkildə təsvir etməyi bacarmışdır. Bu əsərlər daha çox insanın psixikasının təzahürünün nəticəsi olaraq meydana çıxmışdır. Şübhəsizdir ki, hər bir vətəndaşın qəlbində böyüdüyü vəteninin dərdləri sağalmaz izlər buraxır. Azərbaycan xalqının qəlbinə salınmış izlərdən biri də məhz Qarabağ dərdi idi. Qalibiyyətə qədərki dövrdə bu mövzuya bir çox qələm sahibləri dönə-dönə müraciət etmişdir. Bu yazıçılardan biri olan Anar da Qarabağ, Şuşa mövzusunu əsərlərində dəfələrlə işıqlandırmışdır. Anarın "Otel otağı", "Ağ qoç, qara qoç", "Vahimə" və s. əsərlərində bu mövzuya xüsusilə müraciət olunmuşdur. Yazıçının bu əsərlərin fonunda ifadə etdiyi fikir isə nəinki yazıçı, hətta ümumxalq mənafeyinə xidmət edir. Müəllif Kərim Əsgəroğlu obrazının simasında keçmiş xatirələri yenidən oyadaraq hadisələrə vətəndaş mövqeyindən nəzər salmış və etirazını bildirmişdir.

***Açar sözlər:*** *Anar, Qarabağ, Şuşa, Otel otağı, Vahimə, Ağ qoç, Qara qoç*

**Jeyhuna Aslanova**
Baku State University
master student
jeyhunaslanova@mail.ru

## Karabagh longing in Anar's prose

**Abstract**

Anar's creativity, which consists of colorful themes, includes topics that touch on many issues that concern the society and serve the general interest of the people. These topics play a key role in further strengthening the writer's relationship with the people and successfully advancing on the path he finds in the hearts of the readers. This is the reason why Anar's works remain relevant despite the passing of years. In his lyrical works, Anar managed to describe the inner emotions of a person in a completely natural and sincere way, not unusual, rather than the reader's love gained by expressing emotions with artistic notes. These works appeared more as a result of the manifestation of the human psyche. There is no doubt that the troubles of the homeland, where he grew up, leave irreparable traces in the heart of every citizen. One of the traces left in the hearts of the Azerbaijani people was the Karabakh problem. During the pre-victory period, many writers repeatedly addressed this topic. One of these writers, Anar, has covered the subject of Karabakh and Shusha many times in his works. Anar's "Hotel room", "White ram, black ram", "Panic", etc. this topic was especially addressed in his works. The opinion expressed by the writer in the background of these works serves not only the writer's interest, but also the public interest. The author looked at the events from the position of a citizen and expressed his protest by reawakening the past memories in the person of Kerim Asgaroglu.

***Keywords:*** *Anar, Karabakh, Shusha, Hotel room, Panic, White ram, Black ram*

## Giriş

Yaşadığımız həyatın yetərincə mürəkkəb olmasına baxmayaraq¸ biz insanlar bu həyatı həddindən artıq çətinləşdiririk. İnsan əlindəkiləri itirdikcə onların mahiyyətini daha aydın dərk edir. Bu itki bəziləri üçün maddi¸ bəziləri üçün isə mənəvi itkilər olur. Maddi itkilərdən fərqli olaraq mənəvi itkilərin yeri heç zaman dolmur. Əksinə acısı daha da ağırlaşır¸ ağrısı daha da dərinlərə gedir. Gündəlik həyatımızda isə ətrafdan o itkinin izlərini yığırıq. Bəzən bir quşun qanadlarını çırpdığı o qısa anda belə düşdüyümüz boşluqla barışa bilmirik. Bu tək bir xalqın¸ millətin yox¸ bütün insanlığın rastlaşdığı və əlindən qaça bilmədiyi problemdir. Buna görə də¸ insanlar bir- birini daha yaxşı anlamağı bacarmalıdır¸ amma bizi anlamadılar. Biz illərlə tariximizlə¸ ədəbiyyatımızla anlaşılmağa çalışdıq. Ədalətin öz yerini tapacağına inanaraq mənəvi yaramızı ovutduq¸ lakin anlaşılmadıq. Ta ki öz gücümüzlə öz bütövlüyümüzü bərpa edib öz ədalətimizi sübut edənədək. Bu illər ərzində xalqın yaşadığı sarsıntıları yazıçı Anar öz yaradıcılığında dəfələrlə bu mövzuya müraciət edərək hərtərəfli formada əks etdirmişdir. "Anar müasir ədəbiyyatımızın müxtəlif problemləri ilə bağlı xeyli sayda yazıların da müəllifidir. Ədəbiyyatda elə bir istedadlı şair və nasir yoxdur ki, onların yaradıcılığı Anarın fikir sücgəcindən keçməsin" (Yusifli, 2019: 2-3). Vaqif Yusiflinin bu fikriylə tam razılaşırıq, ona görə ki, müasir Azərbaycan ədəbiyyatında müraciət olunan mövzuların bir çoxunu Anar ilk dəfə yazan müəlliflərdəndir və bu mövzulara ondan əvvəl və sonra yenidən müraciət olunmasına baxmayaraq onun yazıları özünəməxsusluğunu qoruyub saxlamışdır.

Anar Şuşadan yazırdı...Anar bir zamanlar Azərbaycan xalqının itirməklə barışmadığı Şuşadan yazırdı. Anarın qələmini dindirən dərd isə bütün xalqın dərdiydi. 1993-1994-cü illərdə çap olunan ‘‘Otel otağı‘‘əsəri ilə yazıçı¸ bəlkə də¸ öz təxminlərinin fövqündə duracaq bir əsər yaratdığının fərqində deyildi. Povesti oxuduqca oxucu müəllifin rəsmi təhkiyəyə çevirdiyini hiss edir. Gözəlliyi dillər əzbəri olan Şuşanın yad əllərdə çırpına bilməyəcək qədər cəsarətini itirdiyini¸ məğlub olmağa alışmayan bu döyüşkən xalqın Qarabağın ürəyini itirməklə barışa bilmədiyini təsvir edir. Bu aspektdən baxdıqda¸ yazıçının əsərdə qoyduğu problemin nə qədər ali duyğuları təcəssüm etdirməyə xidmət etdiyi anlaşılır.

"Azərbaycan insanını Azərbaycan cəmiyyətinin (ümumən cəmiyyətin!) total ictimai-siyasi psixozundan xilas etmək yazıçının son dövrdə çapdan çıxmış "Otel otağı" kitabı kimi, 60-cı illərdən (yaradıcılığa başlayandan) bəri yazdığı, demək olar ki, bütün əsərlərinin əsas ideyasını təşkil edir" (Cəfərov, 2004)

Yazıçı Kərim Əsgəroğlunun yaşadığı dövrün və mühitin portretini yaradarkən bir çox ictimai və sosial problemləri işıqlandırmışdır. Bu problemlər sovet ideologiyasının təsiri altında əzilən və hətta bundan məmnunluq duyan bir çox obrazların zamanla xarakterlərində baş verən ciddi dəyişikliklərin vasitəsilə də anlaşılır. Kərim hər nə qədər vətəninə¸ millətinə bağlı bir insan surətidirsə¸ Çopur Cabbar bir o qədər dönük xarakterlidir. Kərim Türkiyəyə səfəri boyunca atdığı hər addımda vətənini- doğma Şuşanı xatırlayır. Anar yaratdığı obrazın duyğularını ifadə etmək üsulu kimi dad və qoxulardan istifadə edir. Hər bir qoxu Kərimi indi çox istəsə də fiziki olaraq heç cür gedə bilməyəcəyi Şuşaya aparır. İnsan xüsusilə də uşaqlıq çağlarında¸ bütün qayğılardan uzaqda yaşayarkən xoşbəxt olur və böyüdükdən sonra da uşaqlığını yaşadığı məkanlara ehtiyac duyduğu zamanlar getdikcə çoxalır. Bu ehtiyac Kərimin əlindən Şuşayla birlikdə alınmışdı və o¸ uşaqlığını da Şuşayla birlikdə itirmişdi. Xatirələr yaxasını buraxmaq bilməsə də¸ Kərim düşüncələrindən qaçıb reallıqla üzləşdikcə onu ölümə doğru qovan ürəyinin sancıları getdikcə daha da artırdı. Ankaraya gedərkən insanların kinayəli sözləri¸ bütün xalqın faciəsi sayılan itkilərin yaratdığı dərin yaraları çəkinmədən qanatmaqları illərimizi aldı. İllərlə o yaraların qanı dayanmadı¸ acısı dinmədi.

Çopur Cabbar xaricdən ziddiyyətli obraza bənzəsə də¸ daxilən məramı dəyişmir. Dövrün¸ mühitin tələblərinə asanlıqla uyğunlaşan bu obrazdakı əqidəsizlik aydın sezilir. Sanki¸ əqidəsizliyi özünə bir məslək edinmiş bu şəxs sovet dövrü və ondan sonrakı dövrdə də kütlənin yanlış olsa da¸ eşitmək istədiklərini¸ siyasətin xalqın beyninə yeritdiyi ideyaları səsləndirməkdən çəkinmir və ən ağrılı tərəf də bundan ibarətdir ki¸ xalqı kökündən uzaqlaşdırmaqla da açıq-aydın fəxr edir. Povestin əvvəlindən etibarən bir neçə yerdə biz Çopur Cabbarın çıxışlarıyla tanış oluruq. Obrazı öz diliylə

ifşa etmək üsulundan istifadə edən yazıçı onun çıxışlarındakı öz soy-kökünü danıb¸ müstəqillik əldə ediləndən sonra isə türklüyü ilə fəxr etməyini göstərərək xalqın ziyalı təbəqəsi sayılan insanlarının içində bu cür xəyanətkarların da olduğunu və Azərbaycanın kənar düşmənlərindən başqa öz daxilindəki namərdlərə qarşı da özünümüdafiəyə məcbur olduğunu göstərmək istəmişdir.

“Kişiliyin, cəsarətin olsun, dur günahlarını boynuna al, özün de görək bu dastanın bizə nə dəxli var axı ? Bizim dədə-babalarımız bəyəm at əti yeyiblər, qımız içiblər?” (Anar, 2004: 252). Bu misraları Kərimin atası Əsgərə deyib öz kökünü danan Çopur Cabbarı bir müddət sonra bu odlu-alovlu çıxışında dediklərini də danarkən görürük:

“Min illərdən bəri bu yerlər Türk torpaqları, Dədə Qorqud yurdu olub və min illər boyu da türk yurdu, Dədə Qorqud vətəni də olaraq qalacaq” (Anar, 2004: 269). Bu abzasda isə biz nəhayət ki, həqiqətləri dilə gətirən Çopur Cabbarla rastlaşırıq. Lakin, hər nə qədər doğruları söyləsə də, öncədən də qeyd etdiyimiz kimi bu sözlər onun qəlbindən süzülüb gəlmirdi, mənsəb uğruna, xalqın rəğbətini qazanmaq naminə dediyi sözlərdir. Xalqın içində bu tip insanlar çox idi və illər keçməsinə baxmayaraq hələ də var olub insanların ürəyinə saxta sözləriylə yol tapmağa çalışırlar.

Hər Qarabağla bağlı sualda Kərim Əsgəroğlunu qəhər boğması, əslində, Qarabağın duyğuları idi. Kərim həm də, Qarabağın insan vücuduna bürünmüş halıydı. Lakin, bu dərd Qarabağı öldürmədi, əksinə yaşatdı. Yaşatdı və yenidən bizə qaytardı. Kərim isə bu dərdə əsərin sonuna qədər də olsa, dözə bilmədi. Obrazı bir çox ölümlərin ev sahibi olan otel otağına, başqa sözlə desək, “öz qəbrinə” öz ayaqlarıyla gətirən yazıçı burda da xüsusi bir simvolik mənaya yer verir. Bəlkə də, o otaq sağlam əqidə uğruna yaşayan, həyatın bitib-tükənməyən dərdləriylə yoldaş olmuş Kərim kimi insanların ən son müqəddəs dayanacağı idi. Əsərin sonlarına doğru Kərim həyatında bir dəfə də olsa, digərləri kimi rüşvətlə işini həll edə biləcəyini, ailəsinin yanında utanmamaq üçün öz xarakterindən keçməyi düşünür. Lakin, Anar buna icazə vermir, obrazın pak duyğularına xələl gətirməyərək onun ömrünün son sətirlərini yazmaq üçün bu otağa-Kərim kimi ideologiyanın qurbanı olmaqdan imtina etmiş insanların ömrünü başa vurduğu otel otağına gətirir. Kərim Əsgəroğlu dünyadan hərkəsləşmədən köçür. Hara gedir getsin ona yol yoldaşı olan vətən nisgili isə bu dəfə o otel otağında tərk edilir, sanki dünya durduqca xalqın qəlbində məskunlaşmağa məhkum olduğunu anlayır. Anar haqqında danışarkən görkəmli şairimiz Bəxtiyar Vahabzadə belə bir fikir səsləndirir: “Əsərdə nə ölüm var, nə zülüm. Amma ürək parçalayan faciə var. Bu, oxucunu arxasınca aparıb istədiyi vəziyyətə sala bilən qələmin qüdrətidir” (4). Bu fikirləri daha sonra “Otel otağı” əsərinə də aid edən şair əsər haqqında olduqca dəyərli bir nüansa toxunmuşdur. Həqiqətən də, Anar bu acıma hissini sırf duyğuların vasitəsiylə çatdırmağı bacaran azsaylı yazıçılardandır.

“Döyüşə bilmirdin, ölməyə gedəydin Şuşaya” (Anar, 2004: 261). Kərimin dilindən deyilən bu cümlə bir çox azərbaycanlının bu itkidə özünü günahlandırarkən işlətdiyi cümlə rolunu oynayır. Bu dərdlə yaşamaqdansa, ölmək daha asan çıxış yolu kimi gəlirdi. Lakin, itirdiyimizi geri almaq üçün yaşamaq lazımıydı, yaşamağa və bu günlərə gəlib çıxmağa ehtiyac varıydı.

Elçin Hüseynbəyli məqalələrindən birində Anar haqqında belə bir fikir səsləndirmişdir: “Anar bir proqramçıdır. Millətinin yolunu müəyyən eləyən, onun gələcəyini proqnozlaşdırmağı bacaran yazardır” (Hüseynbəyli, 2018: 21). Həqiqətən də, Anarın yazdığı bir çox hadisə real həyatda baş verərkən yazıçı təxəyyülündə olduğu kimi baş verir. Bu da onun təxəyyülünün xalqa bağlılığından irəli gələn bir səbəbdir.

Anarın “Vahimə” hekayəsində biz Oruc obrazının həyatı fonunda Qarabağ müharibəsinin üzərindən illər keçməsinə baxmayaraq insanların psixikasında yaratdığı sarsıntıların daha da dərinləşməsinin şahidi oluruq. Psixoloq Orucun qəbuluna gələn pasientlərin əksəriyyəti eyni dərddən əziyyət çəkir. Bəziləri Qarabağ probleminin həllini bildiyini deyir, bəziləri ermənilərin yaşatdığı travmaların nəticəsi olaraq yaşadığı sarsıntıların təsirilə gördüyü xülyalara inanır. Burada müəllifin təsvir etdiyi Oruc obrazı cəmiyyətin reallığından uzaqda yaşayır və sanki bu uzaqlıqda nə vətən dərdi, nə torpaq davası, nə də tökülən qanlar var. Bu uzaqlıq insandan olduqca soyuqqanlı olmağı tələb edir. Orucu reallığa Bələmi dartıb gətirir və yaşadığı evin bir zamanlar erməni evi olduğunu, hətta pasientlərindən birinin dediyi kimi evin divarlarının “tilsimli” olduğu qənaətinə gətirib çıxarır, lakin burada müəllif yenidən oxucu iradəsinə üz tutaraq hadisənin real səbəblərini

anlamağı bizim öhdəmizə buraxır. "Müəllifə görə, insan ancaq öz fərdi dünyasında yaşa bilməz. Vətəndaşlıq hissindən, ictimai amaldan məhrumluq mənəvi boşluğa, həyatın beş günlüyü haqqında çürük fəlsəfəyə aparır və heç vaxt insanı sona qədər xoşbəxt edə bilməz" (Salamoğlu, 2002: 327). Orucun simasında verilən problemlə biz bu fikri daha aydın anlaya bilirik.

Anar "Ağ qoç, qara qoç" əsərində iki nağılın fonunda bir çox mədəni, siyasi, iqtisadi problemləri işıqlandırır. Ümumiyyətlə, xalqın başına gələn bəlaların özəyində məhz dövrün problemlərinə qarşı laqeyd münasibətin durduğunu ifadə edən yazıçı tarix boyu mövcud olan bütün dərdlərimizin çıxış yolunun öz haqqımızı tələb etməkdə olduğunu göstərir. Bu məqsədlə müəllif bu əsərdə də yenidən Qarabağ mövzusuna üz tutur, lakin bu dəfəki istiqaməti tamamilə başqa zəmində reallaşır. Əsər utopik və antiutopik olan iki nağıldan ibarətdir. Birinci nağıl utopik bir Azərbaycanda cərəyan edir. Bu nağılın qəhrəmanı Məlik Məmmədli səhərlər himn sədaları altında oyanır. Vətənpərvərlik notlarını böyük ustalıqla qələmə alan Anar əsərin davamında Şuşanın, Qarabağın təsvirinə geniş yer verir. Bu baxımdan yazıçının yaradıcılığında aparıcı xətlərdən biri olan vətənpərvərlik mövzusu müxtəlif ideyaların təqdim olunmasında paralel istiqamətlərdən biridir. Müəllif Şuşanı təsvir edərkən onun təbiətinin tərənnümünə xüsusi yer verir. "Qarabağ şikəstəsi" məqaləsində deyir: "Özüm də bilmirəm Şuşanı niyə bu qədər sevirəm. Burda doğulmamışam, burda böyüməmişəm, əslim-nəslim bu şəhərdən deyil, qohum-əqrabam burda yaşamır. Söz yox, vətənin hər qarışı, hər bucağı əzizdir, müqəddəsdir, amma Şuşa elə bir yerdir ki, imkanım olsaydı bütün ömrümü burda keçirərdim və vəsiyyət də edərdim ki, öləndə məni burda basdırsınlar" (Anar, 2015: 5). Bu fikirləri oxuduqca Anarın nəinki nəsrində, hətta qəlbində də Şuşanın ayrı bir yeri olduğunu aydın başa düşürük. Bu sevgi bir çox əsərində Qarabağ probleminin qarşımıza çıxmasına və həllini tapdığı gündən sonra da hələ də Şuşaya qarşı olan məhəbbətin bir an olsun səngiməməsinə gətirib çıxarmışdır. "Mübarizə yolunun çoxlu kəsələri var. Bu kəsələrə düşüb geriyə də qayıtmaq, başqa yollara gedib çıxmaq da mümkündür" (Anar, 2003). Bu mübarizə yolunda Anar da istedadlı qələm sahiblərindən biri kimi çəkinmədən millətin, xalqın dərdini dilə gətirmişdir.

## Nəticə

Ümumilikdə Anar nəsrində vətənpərvərlik mövzusunun, Qarabağ probleminin bu qədər geniş bədii lövhələrlə əksi deməyə əsas verir ki, yazıçı xalqın tarixini, etnoqrafiyasını, mədəniyyətini dərindən bildiyi kimi onu daxilən narahat edən, mənəvi sarsıntılara gətirib çıxaran hadisələri dərindən duyur və bunu öz əsərlərinə də mükəmməl şəkildə yansıdır. Yazıçının Qarabağ problemini ən çox əks etdirdiyi əsər "Otel otağı" povestidir. Burada Şuşanın təbiətinin hər addımda, hər təbiilik anında qəhrəmanın duyğularını riqqətə gətirməsi, keçmiş günlərini xatırladaraq o əlçatmaz duyğulara müraciətdən çəkinməməsi əsərin əsas məğzini təşkil etmişdir. "Ağ qoç, qara qoç" əsərində utopik cəmiyyətin təsviri zamanı yenidən xatırlanan Qarabağ sanki müəllifin günümüzə arzuladığı və illər sonra qəbul olunan arzusu səciyyəsini daşıyır. Xalqın mənafeyinə xidməti və ali duyğuların tərənnümü baxımından Anarın nəsri olduqca dəyərlidir.

## Ədəbiyyat


1. Yusifli, V. (2019). Anarın "söz dünyası". Ədəbiyyat qəzeti, 8 mart, s.2-3.
2. Cəfərov, N. (2004). Anar. Bakı: Bakı AzAtaM.
3. Anar. (2004). Seçilmiş əsərləri. 6 cilddə, III cild. Bakı: Nurlan.
4. https://www.anl.az/down/meqale/edebiyyat/2023/mart/840231(meqale).pdf
5. Hüseynbəyli, E. (2018). Anarı anlamaq anı. 525-ci qəzet, 10 fevral, 21 s.
6. Salamoğlu, T. (2002). Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: Səda, 2002
7. Anar. (2015). Qarabağ şikəstəsi. 525-ci qəzet. 2015, 8 may, S.5-6-7.
8. Anar. (2003). Seçilmiş əsərləri. VI cilddə Bakı: Nurlan, I c.


Göndərilib: 16.01.2024 Qəbul edilib: 07.04.2024